# Kimyəvi təmizləmə, boyama və camaşırxana xidməti: əlverişli bizmes mühitin yaradılması imkanları mövsuzunda

# TƏDQİQAT İŞİ

***Dr. Qubad İbadoğlu***

*Bu tədqiqat işində Azərbaycan Respublikasında kimyəvi təmizləmə, boyama və camaşırxana xidməti üzrə bisnesin təşkili və fəaliyyətinin mövcud durumu araşdırılıb, bu xidmət sektorunun inişafındakı çətinliklərdən bəhs olunub, onların optimal həll yollarını tapmaü üçün oxşar ölkələrin bu sahədəki təcrübəsi öyrənilib, həmin sahənin iş adamlarından dərinləşdirilmiş müsahibələr aparılıb, onlar arasında sorğu keçirilib, əldə edilmiş tapıntılar əsasında nəticə və təkliflər hazırlanıb.*

*Tədqiqiatln metodologiyasına emrik üsulla mövcud vəziyyətin dəyərləndirilməsi, situasiya təhlili, milli və beynəlxalq göstəricilər arasında müqayisələrin aparılması, bu xdimət sahəsində təcrübəyə malik olan iş adamlarının rəylərinin öyrənilməsi, onlarla müsahibə və sorğuların keçirilməsi təşkil edib.*

**Bakı – Aprel 2017**

## Mündəricat

**Giriş**

1. **Kimyəvi təmizləmə, boyama  və  camaşırxana xidmətləri sahəsində biznes fəaliyyətinin durumu və xarakteristikası**

   1.1.Xidmətlər bazarının  və onun  səciyyəvi xüsusiyyətləri

   1.2. Kimyəvi təmizləmə, boyama  və  camaşırxana xidmətləri sahəsində biznes fəaliyyətinin xarakteristikası

   1.3. Kimyəvi təmizləmə və ya camaşırxana biznesini necə qurmalı?

   1.4. Kimyəvi təmizləmə, boyama  və  camaşırxana xidmətləri sahəsində marketinq siyasəti

   1.5. Kimyəvi təmizləmə, boyama  və  camaşırxana xidmətləri  göstərən müəssisələrin xərc maddələri

   **2.  Kimyəvi təmizləmə, boyama  və  camaşırxana xidmətlərini həyata keçirən müəssisələrə tələblər**

   2.1. Kimyəvi təmizləmə xidmətləri üzrə icraçı və istehlakçı münasibətlərinin tənzimlənməsi qaydaları

   2.2. Kimyəvi təmizləmə üzrə xidmətlər göstərən təşkilatlara qarşı tələblər və onlara nəzarət üsulları

   2.3.  Kimyəvi təmizləmə prosesinə dair ümumi texniki, təhlükəsizlik   və ekoloji tələblər

   2.4. Kimyəvi təmizləmə müəssisələrinin xidmətlərinin həcminin müəyyənləşdirilməsi və vergi öhdəlikləri

3. **Kimyəvi təmizləmə, boyama  və  camaşırxana xidmətləri  sektorunun inkişafı ilə bağlı təkliflər**

## Giriş

Son illər qeyri-istehsal sahələrinin maddi-istehsal sahələrinə nisbətən üstün artması iqtisadiyyatda xarakterik hala çevrilir. Getdikcə xidmət sahələrinin genişləndirilməsi, onun təşkilinin daim yaxşılaşdırılması, xidmətin keyfiyyətinin yüksəldilməsi sosial–iqtisadi sahədə həlli vacib məsələ kimi daha çox dövlət əhəmiyyəti kəsb edir. Odur ki, milli iqtisadiyyatın qarşısında duran aktual vəzifələrdən biri də rəqabətqabiliyyətli və rentabelli xidmət sahələrinin inkişaf etdirilməsi yolu ilə dayanıqlı inkişafı təmin etmək, yeni iş yerləri yaratmaq və istehlakçılara alternativ seçim imkanları verməkdən ibarətdir. Bu baxımdan perspektivli xidmət sahələrinin müəyyənləşdirilib inkişaf etdirilməsi çox vacibdir. Təqdim olunan tədqiqat işində belə sahələrdən biri olaraq kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətlərinin istehsalında biznesin mövcud durumu kompleks araşdırılır.

*Birinci fəsildə* xidmətlərin nəzəri-metodoloji əsasları, eləcə də bu sahədə biznesin səciyyəvi xüsusiyyətləri tədqiq olunur. Burada aşağıdakı məsələlər öz əksini tapmışdır:

- kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətləri sahəsində biznesin problemləri və çətinlikləri;
- kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətləri sahəsində biznesin əsas xərc maddələrinin təhlili;
- kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətləri sahəsində biznesin marketinq siyasəti.

*İkinci fəsildə* kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətləri üzrə ixtisaslaşmış müəsssisələrə olan tələblər rı araşdırılır. Bu fəsildə aşağıdakı məsələlər tədqiq olunur. Burada aşağıdakı məsələlər öz əksini tapır:

- Kimyəvi təmizləmə xidmətləri üzrə icraçı və istehlakçı münasibətlərinin tənzimlənməsi qaydaları
- Kimyəvi təmizləmə üzrə xidmətlər göstərən təşkilatlara qarşı ümumi, texniki, təhlükəsizlik və ekoloji tələblər
- Onların hesabatlılığı və öhdəlikləri.

*Üçüncü fəsildə* əldə edilən tapıntılar əsasında nəticə və tövsiyyələr işlənilir.

# 1. Kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətləri sahəsində biznes fəaliyyətinin durumu və xarakteristikası

## 1.1. Xidmətlər bazarı və onun səciyyəvi xüsusiyyətləri

Xidmət sahələrin inkişaf səviyyəsi ölkələrin iqtisadi inkişafının və bütünlükdə iqtisadi sistemin səmərəli fəaliyyətinin əsas göstəricilərindən hesab olunur. Qeyri-istehsal sahəsi qeyri-maddi nemətlər və xidmətlər yaradan sahələrin məcmusu kimi mürəkkəb tərkibə malikdir. Bu isə artıq postindustrial cəmiyyətin ilkin təzahürləri, onun xidmət modelinin səciyyəvi xarakteri sayılır. Xidmət - bilavasitə istehlakçıya yönəldilən fəaliyyətdir ki, burada yeni maddi dəyər yaradılmır, ancaq mövcud maddi dəyərin keyfiyyəti dəyişir. Xidmət - fəaliyyət formasında təqdim olunan rifahdır. Xidmət-eyni vaxtda həm istehsal olunan, həm də istehlak olunan əmtəədir. Xidmət geniş fəaliyyət sahələrini əhatə edir və demək olar ki bütün iqtisadi subyekt növlərinə (ev təsərrüfatları, müəssisə və şirkətlər, rezidentlər və qeyri-rezidentlər) yönəldilir.

2008-ci Milli Hesablar Sistemində xidmətlər aşağıdakı kimi izah edilmişdir: “Xidmətlər istehlakın durumunu dəyişən və ya məhsul və maliyyə aktivlərinin mübadiləsini asanlaşdıran istehsal fəaliyyətinin nəticəsidir”. Əhaliyə göstərilən pullu xidmətlərə müəssisə və fiziki şəxslər tərəfindən göstərilmiş, istehsalçının tədavülünü ödəyən və onlara gəlir gətirən bütün xidmətlər aiddir. Uçot (müşahidə) zamanı əhaliyə göstərilən pullu xidmətlərin aşağıdakı əsas növlərə bölünür.

- *məişət xidməti;*
- *sərnişin nəqliyyatı xidməti;*
- *rabitə xidməti;*
- *mənzil təsərrüfatı xidmətləri;*
- *kommunal xidmətləri;*
- *mədəniyyət xidmətləri;*
- *turist-ekskursiya xidməti;*
- *bədən tərbiyəsi və idman xidməti;*
- *tibbi xidmətlər;*
- *sanatoriya-kurort və sağlamlıq xidmətləri;*
- *hüquq və bank xidməti;*

- *təhsil sistemi xidmətləri;*
- *sair pullu xidmətlər.*

Məişət xidmətlərinin həcminə vətəndaşların fərdi sifarişləri üzrə yerinə yetirilən bütün işlər daxil edilir ki, onların bir növü də camaşırxana (sifarişçinin balansında olan camaşırxanalardan başqa), kimyəvi təmizləmə və boyama xidmətləridir. Bu xidmətlərdə kimyəvi təmizləmə buxarlı və quru olmaqla fərqləndirilir. Bundan əlavə bu tip xidmətlər avtomobillərin salonunun, yumşaq mebellərin kimyəvi təmizlənməsi ilə kimi növlərə də ayrılır. Kimyəvi təmizləmə müəssisələri əsasən vətəndaşlara xidmət göstərir. Camaşırxana müəssisələr isə sifarişlərin əsasən hüquqi şəxslərdən, xüsusilə də müalicə-profilaktika, sağlamlıq müəssisələri, tədris müəssisələrinin yataqxanalarından, mehmanxanalardan, turizm və dəmir yolu müəssisələrindən, hava limanlarından, gəmiçilik müəssisələrindən və hərbi hissələrdən alırlar.

**Funksional təyinatına görə əhaliyə göstərilən xidmətlər** maddi və sosial- mədəni xidmətlərə ayrılır:

Maddi xidmətlər - istehlakçıların məişət tələbatlarının ödənilməsini təmin edən xidmətlərdir. Maddi xidmətlər məhsulların istehlak xassələrinin bərpası (dəyişməsi, qorunub saxlanılması) və ya vətəndaşların sifarişi ilə yeni məhsulların hazırlanmasını təmin edir. Maddi xidmətlərə əsasən məhsulların təmiri və hazırlanması ilə bağlı olan məişət xidmətlərini, kütləvi iaşə xidmətlərini, nəqliyyat xidmətlərini və s. aid etmək olar.

Sosial-mədəni xidmətlər - istehlakçının mənəvi və əqli tələbatlarının və həmçinin normal həyat fəaliyyətinin təmin edilməsinə istiqamətlənmiş xidmətlərdir. Sosial - mədəni xidmətlərə səhiyyə xidmətləri, mədəni xidmətlər, turizm, təhsil, informasiya və s. xidmətlər aid edilə bilər.

**Xidmət sektoru** - müəssisələr, təşkilatlar və fiziki şəxslər tərəfindən göstərilən xidmətlərin məcmusu kimi başa düşülür. Servis - müştəriyə birbaşa xidmət göstərən icraçının fəaliyyətidir. İcraçı dedikdə, burada - müştəriyə xidmət göstərən hüquqi və ya fiziki şəxs olan fərdi sahibkardır.

**Xidmətlər bazarının** əsas xüsusiyyətləri aşağıdakılardır:

1. Xidmətlərin yüksək dərəcədə qeyri-müəyyənliyi alıcıya əlverişsiz şərait yaradır, belə ki, bəzən təklif olunan xidmət xüsusi bacarıq və peşəkarlıq tələb edir, alıcı üçün isə bunu qiymətləndirmək çətin olur.
2. Xidmətin istehsalı ilə istehlakı eyni zamanda baş verən proses olduğu üçün bir birinə

əks olan iki təklifi müqayisə etmək mümkün olmur. Yalnız gözlənilən və əldə edilmiş nəticələri müqayisə etmək mümkündür.

3. Alıcının ətalətliliyi xidmətin alışının təkrarlanmasının əsas amilidir.

4. Bazar konyunkturunun dəyişkənliyinə yüksək həssaslıq. Bu, xidmətin nəqli və saxlanılmasının mümkün olmaması ilə şərtlənir. Xidmətin bu xüsusiyyəti sahibkarlıq fəaliyyətində çətinliklər yaradır, belə ki, xidmət sahələrində tələbin təhlili və proqnozlaşdırılmasında daha yüksək dəqiqlik tələb edilir.

5. Xidmətin istehsalının təşkilinin spesifikliyi. Xidmətin istehsalçıları adətən müxtəlif profilli kiçik və orta müəssisələrdir. Daha çox mobilliyi ilə, onlar dəyişən bazar şərtlərinə çevik cavab vermək üçün kifayət qədər imkana malik olur və yerli bazarda daha səmərəlidirlər.

6. Xidmətin göstərilməsi prosesinin xüsusiyyəti. Bu xüsusiyyət alıcı ilə satıcı arasında məcburi şəxsi əlaqəyə əsaslanır və istehsalçıya qarşı peşəkar, etik və mədəni tələbləri artırır.

7. Bazar proseslərinin yüksək dinamikliyi.

8. Ərazi seqmentləşdirilməsi. Bu onunla bağlıdır ki, təqdim olunan xidmətlərin formaları tələb və xidmət müəssisələrinin fəaliyyət şərtləri konkret bazarla əhatə olunmuş ərazinin xarakteristikasından asılıdır.

9. Kapitalın yüksək dövriyyə sürəti. Daha qısa istehsal dövrü xidmətlər sahəsində biznesin təşkilində əsas üstünlüklərdər biri hesab olunur.

10. Xidmətlərin yüksək diferensiasiya dərəcəsi. Bu, xidmətə olan tələbin fərdiliyi, diversifikasiyası ilə bağlıdır və xidmət sahəsində yenilik üçün ən əhəmiyyətli stimul kimi qəbul edilir. Tələbin mürəkkəb quruluşu yeni, qeyri - standart xidmətlərin yaranmasına gətirib çıxarır.

11. Xidmətlərin nəticələrinin qeyri - müəyyənliyi. Əksər hallarda xidmətin nəticəsi istehsalçının müxtəlif keyfiyyətlərinin təsirinə məruz qalır, kifayət qədər dəqiqliklə əvvəlcədən müəyyən olunmur və yekun qiymətləndirmə yalnız xidmət istehlak edildikdən sonra mümkün olur.

Xidmət bazarının tədqiqatçıları xidmətlərin məhsullar, əmtəələrlə müqayisədə aşağıdakı fərqli xüsusiyyətlərini qeyd edirlər:

1. Alınmış, əldə edilmiş xidmətlərə mülkiyyət hüququnun olmaması.

2. Xidmətlərin hiss olunmazlığı. Təqdim olunan xidmətlər qeyri-maddi xarakter daşıyır.

3. İstehlakçının xidmət prosesinə cəlb olunması. İstehlakçılar özləri xidmətlər istehsalı

prosesində iştirak etməli olurlar. Bu iki formada baş verir: özünə xidmət və xidmət göstərən işçi heyətlə birgə fəaliyyət.

4. Resursların və nəticələrin qeyri-daimi, dəyişkən keyfiyyəti. İstehsal xarakterli xidmətlərin keyfiyyəti müəyyən standartlara cavab verməlidir. Lakin buna bir sıra amillər - işçilərin peşəkarlığı, iş şəraiti, texniki məsələlər, ətraf mühit və s. təsir etdiyindən keyfiyyət baxımından alınan nəticə müxtəlif ola bilər.

5. Qiymətləndirmənin çətinliyi. Bu, xidmətlərin çoxsaylı xarakterik xüsusiyyətlərə malik olması ilə bağlıdır.

6. Ehtiyatların olmaması. Xidmətlərdən gələcəkdə də istifadə etmək üçün onları anbarda saxlamaq, sadəcə olaraq, fiziki baxımdan mümkün deyil.

7. Vaxt amilinin vacibliyi. Müasir istehlakçılar vaxtlarının qədrini bilirlər, hətta xidmət göstərilməsinin sürətləndirilməsi üçün bəzən əlavə vəsait də ödəyirlər. Həddən artıq məşğul müştərilər xidmətləri birbaşa xidmət şirkətlərində deyil, əllərinə düşən hər hansı əlverişli məqamda əldə etməyə üstünlük verirlər.

8. Xidmətlərin istehlakçılar üzrə bölüşdürülməsi və paylanmasının müxtəlif kanallarının olması. Xidmət müəssisələri müştərilərlə birbaşa təmasda olduqlarından adətən vasitəçilərdən istifadə etmirlər. Ona görə də müştərilərə çıxışın, onlarla münasibətin yeni və müasir formaları yaranır.

## 1.2. Kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətləri sahəsində biznes fəaliyyətinin xarakteristikası

Son vaxtlar əhaliyə kimyəvi təmizləmə xidməti göstərən müəssisə və təşkilatların əhatə dairəsi xeyli genişlənmiş, yeni ixtisaslaşmış müəssisələr yaranmış və bu sektor biznes sferaının perspektvli sahələrindən birinə çevrilmişdir. Bazarın bu seqmenti həmçinin sabit gəlirliliyi ilə seçilərək, daim inkişafdadır. Çünki, hər bir insanın həyatında paltar əhəmiyyət kəsb etdiyindən, ona qulluq həddindən artıq vacib məsələ hesab olunur. Müasir istehsalçıları istehsal etdikləri geyimlərin çoxu istisnasız olaraq peşəkar təmizləmə tələb edir. Ona görə də kimyəvi təmizləmə və camaşırxana biznesi hazırda yüksək tələbatlı sahələrdən sayılır. Azərbaycanda kimyəvi təmizləmə xidməti göstərən müəsssisələrin sayı durmadan artır, onlar artıq həm təmizləmə və həm də yuma xidmətlərini özündə birləşdirən geniş və müasir şəbəkəyə çevrilir, məhz elə ona görə də getdikcə camaşırxalanarın sayı azalmaqdadır.

Bu biznesə başlamamışdan əvvəl iddiada və təşəbbüsdə olan hər bir şəxs məişət

xidmətlərinin bazarının müasir vəziyyətini dərindən təhlil etməlidir.

Təhlil zamanı ilk növbədə yaşayiş məntəqəsində əhalinin orta statistik sayına, eləcə də mehmanxana və restoran komplekslərinin qonaq dövriyyəsinə diqqət yetirilməlidir. Sonra onların gəlirlərinin orta səviyyəsi və hər bir potensial müştərinin bu tip xidmətlərə ehtiyacları qiymətləndirilməlidir. Bir çox hallarda kimyəvi təmizləmə biznesinin xidmətindən istifadə edən müştərilər adətən ortadan yuxarı gəliri olanlar sayılır. Bu onunla əlaqədardır ki, kimyəvi təmizləməyə tələbatı əsasən yuyulması qadağan ediən bahalı paltarlar yaradır. Ona görə də bahalı firmalardan geyim əşyaları alanlar kimyəvi tənzimləmə biznesinin potensial müştərilərinə çevrilirlər.

Hesablamlara görə, Avropa ölkələrində hər 10 min nəfər əhalisi olan yaşayın məntəqələrind 1 kimyəvi təmizləmə müəssisəsi fəaliyyət göstərir, müşahidələr göstərir ki, müvafiq göstərici regiondan və urbanizasiya səviyyəsindən asılı olaraq 5-7 dəfə fəqlidir, yəni şəhər yerlərində yaşayan hər 30-50 min nəfər əhaliyə 1 kimyəvi təmizləmə müəssisəsi düşür. Müşahidələr onu da göstərir ki, bir çox yaşayış məntəqələrində kimyəvi təmizləmə xidmətləri göstərən müəssisələri bu və digər səbəbdən də tapmaq müştəri üçün o qədər də asan deyil. Bunu çətinləşdirən amillərdən biri də adətən kimyəvi təmizləmə xidməti göstərən müəssisələrin aktiv reklam kampaniyası aparmamasıdır.

Müşahidələr göstərir ki, Azərbaycanda kimyəvi təmizləmə xidmətləri bazarı hələ doymuş halda deyil, bazarın bu seqmentində fəaliyyət göstərən müəssisələrin sayı digər ölkələrlə, xüsusilə də ABŞ və Avropa ölkələri ilə müqayisədə xeyli azdır. Baxmayaraq ki, kimyəvi təmizləmə xidmətləri sahəsində biznesin qurulması bir çox hallarda riski az olan gəlirli biznes kateqoriyalarına aid edilir. Amma onu da nəzərə almaq lazımdır ki, bu tip müəssisələrə daha çox ehtiyac sanatoriya və kurort müəssiləri yerləşən ərazilərdə, eləcə də tələbələrin kütləvi və sıx məskunlaşdığı ümumi yataqxanaların ərazisində yaranır.

## 1.3. Kimyəvi təmizləmə, boyama və camaşırxana biznesini necə qurmalı?

Kimyəvi təmizləmə və ya camaşırxana biznesini qurarkən başlıca məsələlərdən biri həmin biznesin məşğul etdiyi sahədir. Misal üçün, saatda orta ehsabla 10 kilo paltar yuyan kiçik qabaritli camaşırxanalar üçün 20 kv metr sahənin olması tələb olunur. Əgər camaşırxana saatda 30 kiloqrama qədər yüklənərsənsə, o halda bu məqsədlə 100 kv. Metrdən çox sahəsi olan yer seçilməlidir. Ona görə də sahibkar ilk növbədə açacağı biznesin miqyası barədə fikirləşməlidir. Bu ona görə vacibdir ki, sonradan camaşırxananın və ya kimyəvi

təmizləmə xidməti göstərən biznesin yerini dəyişmək üçün başqa miqyasda olan yer axtarılmasın. Çünki, fəaliyyət sahəsinin dəyişməsi bu biznesin inkişafına mənfi təsir göstərən başlıca amillərdən hesab olunur. Ona görə ki, sahibkar bu səbəbdən özünün mövcud müştəri şəbəkəsini itirə və bununla da prosesi yenidən başlamaq məcburiyyətində qala bilər.

Bu biznesin vacib qaydalarından biri də onun yerinin birinci mərtəbədə yerləşməsidir. Bu zaman nəzərə almaq lazımdır ki, yer elə seçilməlidir ki, orda çirkli paltarların gətirilməsi və təmiz paltarların aparılması üçün fərqli giriş-çıxış imkanaları olsun. Biznes üçün seçilən yerdə elektrik havalandırma, su təchizatı və həmçinin mərkəzləşdirilmiş kanalzasiya sistemlərinə asan çıxış olmalıdır.

Bundan əlavə, kimyəvi təmizləmə biznesi açan sahibkarlar bir sıra sadə qaydalara da əməl etməlidirlər. Kimyəvi təmizləmə xidməti göstərən müəssisələr yaşayış binalarındarın ən azı 80 metr uzaqda yerləşməlidir. Vacib qaydalardan biri də kimyəvi təmizləmə xidməti göstərən müəssisə yerləşən yerdə tavanın hündürlüyü minimum 3 metr olmalıdır. Bundan başqa kimyəvi təmizləmə xidməti göstərən müəssisələrin sahibləri bu sahədə təhsilə malik olmalı, atmosferə çirkləndirici tullantıların atılmasına yol verməməlidir.

Bu biznesi açmamışdan əvvəl sahibkar müəssisəni hüquqi şəxs olaraq qeydiyyatdan keçirməli və ya fizki şəxs olaraq fərqi qaydadsa sahibkarlıq fəlayyəti üçün vergi ödəyicisinin eyniləşdirmə nömrəsinə malik olmalıdır.

## 1.4. Kimyəvi təmizləmə, boyama və camaşırxana müəssisələrinin marketinq siyasəti

Sahibkar xüsusi olaraq reklama diqqət yetirməlidir. Çünki, savadlı reklam siyasəti olmadan yüksək və tez mənfəətə çıxmaq mümkün deyildir. Potensial müştərilər açıq media vasitələrində, xüsusilə də bilbordlarda və ya sitilaytlardakı reklamları daha yaxşı qəbul edirlər.

Effektiv reklam ictimia nəqliyyatlarda, pulsuz paylanan mətbu nəşrlərdə, radio və kütləvi informasiya vasitələrində dərc olunan elanlardır.

Kimyəvi təmizləmə və ya camaşırxana xidməti ilə məşğul olan sahibkarlar bu biznesin başlanğıcından onun müsbət reputasiyasının necə formalaşdırılması barədə düşünməlidirlər. Əlavə müştəri cəlb etmək üçün sahibkarlar ardıcıl olaraq məbləği sifarişlərin sayından asılı olan güzəşt paketi təklif etməli və onu müntəzəm sürətdə yeniləşdirməlidir. Bununla yanaşı sahibkarlar bahalı hədiyyələrin uduşuna bağlı aksiyalar da həyata

keçirməlidir. Bu zaman posterlərin çapı və vərəqlərin paylanmasına dair reklamlar da yerləşdirilməlidir.

Gələcəkdə müəssisənin özünə məxsus internet səhifəsinin işlənilməsi, eləcə də sosial şəbəkədə profilinin yaradılması barədə də fikirləşmək olar.Bütün bunlar kompleks marketinq siyasətinin aparılması üçün çox vacibdir. Kompleks marketinq siyasəti isə fasiləsiz olaraq artan daimi müştərilərin bazasını yaratmağa imkan verir.

## 1.5. Kimyəvi təmizləmə, boyama və camaşırxana müəssisələrinin əsas xərc maddələri

Kimyəvi təmizləmə və ya camaşırxana açmaq istəyəni düşündürən birinci sual bu biznesin neçəyə başa gəlməsidir. Bu fikrə düşənlər mütləq ilkin kapitala malik olmalıdırlar. Əgər başlanğıc məbləğ böyük deyilsə onda biznes üçün yeri almaq vacib deyil, onu kirayəyə götürmək olar.

Kimyəvi təmizləmə və camaşırxananın yüksək səviyyədə və tam gücü ilə işləməsi üçün peşəkar avadanlığın, o sıradan da paltarların qablaşdırılması və saxlanılması üçün avadanlıq, quru təmizləmə aparatı buxar ütüləri, pres, ləkə təmizləyən, buxar ütülərinin istifadəsi zamanı manekenlər, ütü stolu, dərzi üçün averlok , buxar generatoru, kompressor, paltaryuyan və yuyulmuş paltarları qurudan maşınlar, qablaşdırma edən maşın, ləkəni təmizləyən xüsusi boyalar, xüsusi təmizləmə vasitələri və dərmanların alınması, quru təmizləmə üçün dərman, asılqan və digər ləvazimatlar vacibdir.

Hesablamalar göstərir ki, keyfiyyətli avadanlığın alınması üçün orta sinif sahibkara 38-40 min manat təşkil edir. Bundan əlavə xərclənmiş vəsaitin 5-10 faizi də avadanlığın quraşdırılmasına sərf olunur. Sahibkar sənədlərin rəsmiləşdirilməsinə 2-3 min manat vəsait xərcləyir. Xərclərin smetasina həmçinin yerin təmirini də daxil etmək lazımdır. Təmir xərclərinin minimal məbləği 3000 manat təşkil edə bilər. Marketinq və reklam xərcləri aylıq olaraq minimum 1000 manat ola bilər. Beləliklə də orta sinif kimyəvi təmizləmə və ya camaışırxana açmaq üçün tələb olunan cəmi məbləğ 100 min manata çatır.

Biznes fəaliyyətə başlayandan sonra isə xərclərin çoxu göstərilən xidmətin xərcindən asılı olacaq. Bir qismi isə sabit qalacaq. Onlara kirayə xərcini aid etmək olar. Belə ki, kirayə üçün ödənilən vəsait müəssisənin yerləşdiyi yerdən və eyni zamanda yerin sahəsindən asılıdır. Bu məbləğ Bakı şəhərində ayda orta hesabla 500 manatdan 2000 manatadək dəyişə bilər. Məsələn 1-ci mərtəbə də 50 kv metrlik yerin kirayəsi şəhərin mərkəzinə yaxın yerlərə

1000 manatdan az deyil. Dəyişən xərclərə su təchizatı, elektriklə təminat, ödənilən vergilər, materialların alınması üçün məsrəflər, muzdlu işçilərin əmək haqları və sairə daxildir. Adətən dəyişən xərclər əldə edilən gəlirlərin 50 faizini ötür.

Kimyəvi təmizləmə, boyama və camaşırxana xidməti sahəsində fəaliyyət göstərən sahibkarlar arasında aparılmış sorğunun nəticələrinə görə, onların gəlirlərinin 25 faizə qədəri əmək haqqı xərclərinnə, 25 faizə qədəri yuma xərclərinə, 20 faizə qədəri kommunal xərclərə, 10 faizə qədəri cari təmir xərclərinə, 10 faizə faizə qədəroi kirayə xərclərinə və yerdə qalaın hissəsi isə sair xərclərə gedir. Bu vəziyyət aşağıdakı 1 saylı diaqramda təsvir olunub.




Təxmini hesablamalar aparsaq görərik ki,. orta heabla 1 paltara görə 10 manat xidmət haqqı alan sahibkarların müştərilərin sayı ayda 1000 nəfər olarsa onda onda ayda təxmini gəlir 2-3 min manat təşkil edə bilər. Sahibkarlar arasında keçirilmiş sorğu göstərdi ki, onların aylıq dövriyyəsi 20 min manat ətrafında olanda qazancları 5-7 min manata qədər, 10 min manat ərtafında olan isə 2-3 min manatdır.

Kimyəvi təmizləmə, boyama və camaşırxana xidməti sahəsində fəaliyyət göstərən sahibkarlar arasında aparılmış sorğu göstərir ki, bu templə işləyən kimyəvi təmizləmə müəssisələri 6 aydan sonra 1 ilədək olan müddətdə xərclərini tam şəkildə çıxarır. Lakin, bu zaman sərmayələrin rentabellik göstəricisi ayda orta hesabla 8 faiz təşkil etməlidir.

Əgər sahibkar özünəxidmət edən kimyəvi təmizləmə biznesi açarsa, ilk növbədə ona yuma və qurutma maşınlarını almaq üçün 5-8 min manat vəsait lazım olacaq. Çox güman ki, 3000 manata qədər də vəsait ütü, ütü stolu, su filtri, paltarları yığmaq üçün səbətıərin

alınmasına lazım olacaqdır. Bu zaman müştərilərin gözləmə otağının komplektləşdirilməsi tələb olunur. Bun üçün isə kreslo, stullar, televizor, kofe maşını, çaydan və sair avadanlıqların alınmasına, populyar olan bir sıra dövrü nəşrlərə abunə yazılmasına ehtiyac yaranacaq. Bu məqsədlə də xərclənən cəmi vəssitlər 3-5 min manat təşkil edə bilər. Beləliklə də özünəxidmət edən kimyəvi təmizləmə biznesi üçün 10-12 min manat vəsait tələb olunur.

## 2. Kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətlərini həyata keçirən müəssisələrə tələblər

### 2.1. Kimyəvi təmizləmə xidmətləri üzrə icraçı və istehlakçı münasibətlərinin tənzimlənməsi qaydaları

Bundan əvvəlki bölmədə xidmətlər barədə bəhs edilənlərdən aydın olur ki, onların müxtəlif kateoriyaları mövcuddur və hər bir növ xidmətlər də öz-özlyüyndə fuksiyalarına görə biri-birindən fəqlənir. Odur ki, onların tənzimıənməsi qaydaları da fərqlidir. Onlar arasında seçilən və hazırkı tədqiqatın predmeti olan məişət xidmətləri, daha spesifik olaaq isə kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 aprel 2014-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları" ilə tənzimlənir. Qaydalara görə, icraçı istehlakçıya göstərilən xidmətlərin (yerinə yetirilən işlərin) icra yerini (səyyar qəbul məntəqələri və digər yerlər) və şəraitini nəzərə almaqla, onların dəyərinin ödəniş forması və qaydası haqqında məlumat verməlidir. Sifarişlərin qəbul edildiyi xidmət obyektlərində bu məlumatlar istehlakçı üçün rahat və görünən yerdə yerləşdirilməklə, aşağıdakıları əhatə etməlidir.

- *istehlakçıların hüquqlarının müdafiəsi ilə məşğul olan dövlət və ictimai qurumlar haqqında məlumatları;*
- *göstərilən əsas və əlavə xidmətlərin (işlərin) siyahısını;*
- *təklif olunan xidmətlərin (işlərin) və onların icrası zamanı istifadə olunan materialların, ehtiyat hissələrinin qiymətlərini;*
- *istehlakçıya təklif olunan hazırlanacaq məmulatların (yerinə yetirilən işlərin) nümunələrini (modelini) nümayiş etdirən vitrinləri (moda jurnallarını, albomları və s.);*
- *xidmət göstərilməsində (işin yerinə yetirilməsində) istifadə edilən əsas və köməkçi materialların istehlakçıya təklif olunan nümunələrini;*
- *icraçının iş rejimi, hüquqi ünvanı və telefon nömrəsi haqqında məlumatları.*

Göstərilən xidmət və icraçı haqqında istehlakçıya düzgün olmayan məlumatların verilməsi onun (istehlakçının) həyatına, sağlamlığına və ya əmlakına ziyan vurulması ilə nəticələnərsə, sonuncu müqaviləni pozmaqla ona dəymiş ziyanın tam həcmdə ödənilməsini tələb edə bilər.

İcraçı öz fəaliyyət növünə uyğun olan xidmətlər (işlər) üzrə sifarişləri qəbul edir. Xidmət göstərilməsi (işlərin yerinə yetirilməsi) üçün sifarişlər bilavasitə xidmət obyektlərində, onların filiallarında, iş, təhsil, yaşayış və istirahət yerlərində qəbul edilə bilər. Xidmət göstərilməsi (işin yerinə yetirilməsi) üçün sifariş aşağıdakı məlumatları əks etdirən müqavilə ilə, habelə nağd pul hesablaşmaları aparılan zaman çek, qəbz və digər ciddi hesabat blankları tərtib edilməklə rəsmiləşdirilir.

- *icraçının hüquqi ünvanı, sifarişçinin adı və soyadı, ünvanı və telefonu;*
- *sifarişin qəbul olunması tarixi, yerinə yetirilməsi müddəti və avans məbləği;*
- *xidmətin (işin) növü, onun yerinə yetirilməsi üçün icraçı və istehlakçı tərəfindən təqdim olunan materialların (əşyaların) tam adı;*
- *xidmətin qarşılıqlı razılaşdırılmış dəyəri və miqdarı;*
- *təmirə verilən məmulatın zavod nömrəsi;*
- *tərəflərin məsuliyyəti;*
- *sifarişçinin və qəbul edənin imzaları;*
- *tərəflərin razılığı ilə digər məlumatlar.*

İcraçı normativ sənəddə nəzərdə tutulmuş və ya istehlakçı ilə müqavilədə müəyyən edilmiş müddətdə göstərilən xidmətin nəticələrinin təyinatı üzrə istifadə edilməsinə təminat verməlidir.

İcraçı xidmət göstərilməsində (işin yerinə yetirilməsində) istifadə məqsədi ilə istehlakçı tərəfindən təqdim edilən materialların, ehtiyat hissələrinin və digər əşyaların düzgün istifadəsi üçün məsuliyyət daşıyır.

İcraçı istehlakçıya aşağıdakılar barədə məlumat verməlidir:

- *istehlakçının təqdim etdiyi materialların və ehtiyat hissələrinin keyfiyyəti və yararlılığı;*
- *hazırlanmış məhsullardan və yerinə yetirilmiş işlərin (göstərilən xidmətlərin) nəticələrindən təhlükəsiz və səmərəli istifadə;*
- *icraçıdan asılı olmadan yerinə yetirilən işin (göstərilən xidmətin) keyfiyyətinə xələl gətirə biləcək amillər;*
- *qanunvericilikdə nəzərdə tutulmuş digər məlumatlar.*

*İcraçı aşağıdakıları təmin etməlidir:*

- *təyin edilmiş iş rejiminə riayət edilməsini;*
- *göstərilən xidmətlər (yerinə yetirilən işlər) haqqında məlumatlar verilməsini;*
- *göstərilən xidmətin (yerinə yetirilən işin) lazımi keyfiyyətə, standartların tələblərinə və müqavilənin şərtlərinə uyğun olmasını;*
- *hazırlanmış məhsulların təyin edilmiş müddətlərdə təhvil verilməsini;*
- *göstərilən xidmətin (yerinə yetirilən işin) təhlükəsizliyini;*
- *göstrilmiş xidmətlər üzrə müəyyən edilmiş müddətlərdə zəmanət öhdəliklərinin yerinə yetirilməsini.*

İcraçı sifarişi müqavilə ilə və ya digər sənədlərlə müəyyən edilmiş müddətlərdə yerinə yetirməlidir. Sifarişin icra müddəti, başlanğıc və son müddəti qeyri-iş gününə təsadüf etdikdə, icra müddəti növbəti iş günündən hesablanır.

Qəbul edilmiş sifarişin icrasına başlanılmadığı və ya xidmətin (işin) gedişatı zamanı sifarişin müəyyən edilmiş müddətdə yerinə yetirilmədiyi, habelə sifarişin icra müddəti pozulduğu hallarda istehlakçı icraçıdan aşağıdakıları tələb edə bilər:

- *sifarişin icrasına başlanılması və ya onun tam yerinə yetirilməsi üçün yeni müddətin müəyyən edilməsini;*
- *sifarişin yerinə yetirilməsinin digər şəxsə tapşırılmasını (icraçının hesabına);*
- *xidmətə (işə) görə haqqın müvafiq məbləğdə azaldılmasını;*
- *müqaviləni pozmağı və vurulmuş ziyanın ödənilməsini.*

Sifarişin icrasına başlamaq (və ya onu tam yerinə yetirmək) üçün müəyyən edilmiş yeni müddət müqavilədə və ya digər sənəddə öz əksini tapmalıdır. Yeni müəyyən edilmiş müddətlərin pozulduğu hallarda, istehlakçı müqavilənin pozulmasını və vurulmuş ziyanın ödənilməsini tələb edə bilər. Sifarişin icrasına vaxtında başlanılmaması və ya xidmətin (işin) ləng gedişatı sifarişin müəyyən edilmiş müddətə icrasının qeyri-mümkünlüyünə səbəb olarsa, bu zaman icraçı istehlakçıya dəyən zərəri ödəməyə borcludur. Yerinə yetirilmiş sifarişin müqavilə və ya digər sənəd üzrə müəyyən edilmiş qəbul müddətinin pozulması halları üçün müqavilə sənədlərində müxtəlif cərimə şərtləri nəzərdə tutula bilər.

Əgər icraçı zərərin qarşısıalınmaz qüvvənin təsiri və ya istehlakçının maldan, işin, xidmətin nəticələrindən istifadə və onları saxlama qaydalarını pozması nəticəsində əmələ gəldiyini sübuta yetirərsə, məsuliyyətdən azad edilir.

Sifariş üzrə icra olunmuş işlər və ya göstərilmiş xidmətlər tam şəkildə istehlakçılara çatdırılmalıdır.İcra olunmuş işlərdə və ya göstərilmiş xidmətlərdə çatışmazlıqlar aşkar edildikdə, istehlakçı aşağıdakılardan birini tələb edə bilər:

- *göstərilmiş xidmətdə (yerinə yetirilmiş işdə) mövcud olan çatışmazlıqların əvəzsiz olaraq aradan qaldırılmasını;*
- *göstərilmiş xidmətin (yerinə yetirilmiş işin) dəyərinin müvafiq məbləğdə azaldılmasını;*
- *əvəzi ödənilməməklə, eyni növlü materialdan müvafiq keyfiyyətdə digər məmulatın hazırlanmasını və ya işin təkrar yerinə yetirilməsini (paltarların yuyulması və ya kimyəvi təmizlənməsi, təmir işləri və s.), yaxud öz vəsaitləri və ya üçüncü şəxsin hesabına çatışmazlıqların aradan qaldırılmasına çəkilmiş xərclərin ödənilməsini.*

Göstərilən xidmətdə (yerinə yetirilən işdə) mövcud olan çatışmazlıqlar müəyyən olunmuş müddətdə aradan qaldırılmazsa, istehlakçı müqaviləni ləğv etməklə, vurulmuş ziyanın ödənilməsini tələb edə bilər. İstehlakçı həmçinin göstərilən xidmətdə (yerinə yetirilən işdə) çatışmazlıqlar və yaxud müqavilə şərtlərindən kənarlaşmalar aşkar etdikdə, həmin müqaviləni ləğv edə bilər. Müqavilənin ləğvi istehlakçının yazılı ərizəsinə (ləğv edilmə səbəbləri göstərilməklə) əsasən həyata keçirilir. Ərizəyə müqavilə əlavə olunur. Pulun, həmçinin xammal və materialların istehlakçıya qaytarılması ilə bağlı xərclər icraçının hesabına ödənilir.

Yuxarida nəzərdə tutulan tələblər aşağıdakı hallarda istehlakçı tərəfindən irəli sürülə bilər:

- *yerinə yetirilmiş sifarişin qəbulu zamanı və ya zəmanət müddətində;*
- *icra olunmuş sifarişin qəbul edildiyi tarixdən qanunvericiliklə müəyyən edilmiş müddətdə (sifariş üzrə zəmanət müddəti müəyyən edilmədikdə);*
- *sifarişin icrası zamanı çatışmazlıqlar aşkar edildikdə.*

Xidmət göstərilməsi (işin yerinə yetirilməsi) zamanı aşkar edilmiş çatışmazlıqlar istehlakçının təyin etdiyi müvafiq müddətdə icraçı tərəfindən aradan qaldırılmalıdır. Yerinə yetirilmiş sifarişin qəbulu zamanı istehlakçı tərəfindən aşkar edilmiş çatışmazlıqlar tərəflər arasında razılaşdırılmış müddətdə (əgər müqavilə üzrə daha az müddət müəyyən edilməmişdirsə) aradan qaldırılmalıdır. Çatışmazlıqların aradan qaldırılması üçün istehlakçı tərəfindən müəyyən edilmiş (və ya tərəflərlə razılaşdırılmış) müddət, tərəflərin imzaladıqları müqavilədə və ya digər sənəddə öz əksini tapmalıdır. Çatışmazlıqların aradan qaldırılması ilə bağlı müəyyən edilmiş müddətlərin pozulmasına görə icraçı qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyır.

Xidmətin (işin) və onun yerinə yetirilməsi üçün istifadə edilən materialların, ehtiyat hissələrinin dəyəri və ödəniş forması tərəflər arasında qarşılıqlı razılıq əsasında müəyyənləşdirilir.

İstehlakçı öz istəyindən asılı olaraq, müqavilə bağlanılan (sifariş qəbul edilən) zaman ona göstəriləcək hər hansı xidmətin (işin) tam və ya qismən dəyərini əvvəlcədən ödəyə bilər.

## 2.2. Kimyəvi təmizləmə üzrə xidmətlər göstərən təşkilatlara qarşı tələblər və onlara nəzarət üsulları

Hazırda Azərbaycanda yüzlərlə kimyəvi təmizləmə xidməti göstərən müəssisələr fəaliyyət göstərir. Onlar mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq əhaliyə göstərilən pullu xidmətlərin həcmi və şəbəkəsi haqqında ötən ilin hesabatını hazırlayıb, hər növbəti ilin fevral ayının 18-dək yerləşdiyi rayonun (şəhərin) statistika orqanına təqdim edirlər.Hesabat əhaliyə göstərilən pullu xidmətlərin həcmi və şəbəkəsi haqqındadır. Bu hesabat forması Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 3 iyun 2009-cu il tarixli 13/13 №-li sərəncamı ilə təsdiq edilmişdir. Hesabatlıq dövrü illikdir. "Əhaliyə göstərilən pullu xidmətlərin həcmi və şəbəkəsi haqqında hesabat" 1-xidmət №li rəsmi statistika hesabatı formasına dair İzahatda qeyd olunur ki, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 3 iyun 2009-cu il il tarixli 13/13 №-li sərəncamı ilə təsdiq edilmiş "Əhaliyə göstərilən pullu xidmətlərin həcmi və şəbəkəsi haqqında hesabat" 1-xidmət №-li rəsmi statistika müşahidəsi formasını mülkiyyət formasından asılı olmayaraq xidmətlərin satışı üzrə sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər, onların filialları və nümayəndəlikləri təqdim edirlər. 1- xidmət №-li rəsmi statistika müşahidəsi forması yalnız toplu statistik informasiya əldə edilməsinə xidmət edir, onlardan vergi məqsədləri üçün istifadə edilə bilməz və məlumatlar başqa təşkilatlara verilmir. Odur ki, statistika orqanları alınmış ilkin məlumatların məxfi saxlanmasına zəmanət verir.

Hesabat forması tərtib edilərkən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 25 iyun 2002-ci il tarixli 30/13 №-li sərəncamı ilə təsdiq edilmiş "Əhaliyə göstərilən pullu xidmətlərin uçotuna dair tövsiyələr" əsas götürülməlidir. Hesabat formasında nəzərdə tutulmuş xidmətlərin hər bir növü üzrə əsas işin dəyərindən başqa, əlavə xidmətlərə görə ödəniş də daxil edilir.

"Əhaliyə göstərilən pullu xidmətlərin həcmi və şəbəkəsi haqqında hesabat" 1-xidmət №-li rəsmi statistika hesabatında aşağıdakı cədvəldə kimyəvi təmizləmə və boyama, camaşırxana xidmətləri üzrə təqdimat olunan məlumatlar əks etdirilir.

**Cədvəl 1. "Əhaliyə göstərilən pullu xidmətlərin həcmi və şəbəkəsi haqqında**

**hesabat"ın kimyəvi təmizləmə və boyama, camaşırxana xidmətləri üzrə bölməsi**

| **Kodlar** | **Xidmətlərin adı** | **Əhaliyə göstərilən pullu xidmətlərin həcmi, manatla** |
|---|---|---|
| 01.05 | Kimyəvi təmizləmə və boyama, camaşırxana xidmətləri | |
| 03.140.30.01 | Paltarların kimyəvi yolla təmizlənməsi və rənglənməsi | |
| 03.140.30.02 | Paltarların yuyulması | |
| 05.622.00.01 | Ev üçün toxuculuq məmulatlarının kimyəvi təmizlənməsi, boyadılması | |
| 05.622.00.02 | Ev üçün toxuculuq məmulatlarının yuyulması | |

Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Texniki tənzimləmə və standartlaşdırma şöbəsi tərəfindən işlənib hazırlanmış standart Azəbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında 07.10.1995-ci il tarixdə bağlanmış "Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahələrində əməkdaşlıq haqqında Saziş"in 2-ci maddəsinin 3-cü bəndinə əsasən ГОСТ Р 51108-97 "Услуги бытовые. Химическая чистка. Общие технические условия" standartı əsasında hazırlanmışdır. Dövlət standartında müəyyən edilən tələblərin beynəlxalq standartlara, norma, qayda və tövsiyələrə və digər dövlətlərin müvafiq mütərəqqi milli standartlarına, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmasını müəyyən etmək üçün standartın ilkin yoxlama müddəti 2020-ci il, dövrü yoxlama müddəti 5 il müəyyən edilib.

Bu standart aşağıdakı formada təsdiq olunub.

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI**

---

–

**Məişət xidmətləri**

**Kimyəvi təmizləmə**

**Ümumi texniki şərtlər**

**AZS 828-2015**

**(ГОСТ Р 51108-97 )**

**Service. Dry cleaning.**

**General spesifications.**

---

Hazırkı standart müxtəlif materiallardan hazırlanmış paltarın; toxuculuq qalantereyasının məmulatlarının; xalça məmulatlarının və mebel və avtomobil salonları üçün üzləmə materiallarının; tüklü – pərgü məmulatlarının və sintepon və ya tük və pərgü dolduruculları ilə məmulatların; uşaqlar üçün yumşaq oyuncaqların; baş örtüklərinin; xüsusi geyimin, üst tərəfinin detalları toxuculuq materiallarından hazırlanmış ayaqqabıların kimyəvi təmizlənməsinə qarşı tələbləri, eləcə də, istehlakçıların həyat və sağlamlığının təhlükəsizliyini, ətraf mühitin təhlükəsizliyini, kimyəvi təmizləməyə məruz qalmış məmulatların qorunmasını təmin edən tələbləri müəyyən edir. Standart tərkibində xlorin, polivinilxlorid və ya poliuretan lifləri olan materiallardan hazırlanmış məmulatların kimyəvi təmizlənməsinə aid deyil. Standart istehlakçılara məmulatların kimyəvi təmizlənməsi üzrə məişət xidmətlərini (bundan sonra – xidmət) göstərən təşkilatlar onların təşkilati – hüquqi formasından asılı olmayaraq, həmçinin, fərdi sahibkarlar tərəfindən tətbiq olunur.

Bu standartın əsasında məmulatların kimyəvi təmizlənməsi sahəsində konkret əməliyyatlar üzrə normativ sənədlər hazırlanır. Standartda Rusiya Federasiyasının aşağıda qeyd olunan standartlarına istinadlar tətbiq olunmuşdur: ГОСТ 12.2.084 - 93 (ИСО 6178 - 83) Camaşırxana və quru təmizləmə üçün maşın və avadanlıqlar. Ümumi təhlükəsizlik tələbləri.

AZS 828-2015 (ГОСТ Р 51108-97) "Məişət xidmətləri. Kimyəvi təmizləmə. Ümumi texniki şərtlər"[1] standartına görə, kimyəvi təmizləmə üzrə xidmətlər göstərən təşkilatlara - kimyəvi təmizləmə obyektlərinə - qarşı tələblər siyahısı müəyyənləşdirilib.

**Kimyəvi təmizləmə obyekti** – bütün fəsillərə aid çeşidlərdə məmulatlar: təbii, süni və sintetik materiallardan paltarlar, onların detalları, ayaqqabılar, çantalar, baş örtükləri, qalantereya məmulatları, yumşaq oyuncaqlar, tüklü – pərgü məmulatları, tül, pərdələr, mebel və avtomobillər üçün üzlər, xalçalar və xalça məmulatları, mebel və avtomobil oturacaqları üçün istismarda olmuş və kimyəvi təmizləmə prosesindən və ya akva – təmizləmədən keçmiş çexollar.

**Kimyəvi təmizləmə obyektlərinin müstəqil texnoloji ekspertizası** – ekspert tərəfindən (və ya ekspertlər qrupu tərəfindən) müəyyən formul və ya metodikalar əsasında,

---

[1] http://e-qanun.az/framework/29760

ekspertiza obyekti haqqında rəy şəklində tərtib olunan məlumatların analizi ilə həyata keçirilən kimyəvi təmizləmə obyektinin eksperimental yoxlanılmasıdır.

Xidmət səviyyəsinə görə kimyəvi təmizləmə xidmətləri aşağıda qeyd olunan şəkildə bölüşdürülür:

- *ali kateqoriyaya aid kimyəvi təmizləmənin təşkil olunması üzrə xidmətlər ("Lüks");*
- *birinci kateqoriyaya aid kimyəvi təmizləmənin təşkil olunması üzrə xidmətlər;*
- *ikinci kateqoriyaya aid kimyəvi təmizləmənin təşkil olunması üzrə xidmətlər.*

Növbəti cədvəldə kimyəvi təmizləmə xidmətlərinin icraçılarına qarşı tələblər tədqim olunur.

**Cədvəl 2. Kimyəvi təmizləmə xidmətlərinin icraçılarına qarşı tələblər**

| **Kimyəvi təmizləmə xidmətlərinin icraçılarına qarşı tələblər** | **Tələblərin yerinə yetirilməsi** | | |
|---|---|---|---|
| | **Ali kateqoriyalı kimyəvi təmizləmə təşkilatı** | **Birinci kateqori yalı kimyəvi təmizləmə təşkilatı** | **İkinci kateqor iyalı kimyəvi təmizləmə təşkilatı** |
| 1. Xidmətlərin qanunla və ya onunla müəyyən olunmuş qaydada yaradılmış mütləq tələblərə uyğunluq | + | + | + |
| 2. Xidmətlərin mütləq tələblərə uyğunluğunun təsdiqinin mövcudluğu (əgər bu cür təsdiqləmə qanunla və ya onunla müəyyən olunmuş qaydada tələb olunarsa) | + | + | + |
| 3. Xidmətlərin hazırkı standartın tələblərinə uyğunluğu (ikinci kateqoriya üçün yalnız mütləq tələblərə və (2) tələblərinə). | + | + | - |
| 4. OK 002 – 93 uyğun olaraq kimyəvi təmizləmə üzrə göstərilən xidmətlərin nomenklaturası – xidmətlərin sayı. | 7 - dən az olmayaraq | 5 - dən az olmayaraq | - |
| 5. Əlavə xidmətlər:<br>- antistatik təmizləmə<br>- şalvar və ətək qatlarınınsabit formanın verilməsi məqsədi ilə appretta ilə işlənməsi (toxuculuq | <br>+<br>+ | <br>+<br>+ | <br>-<br>+ |

| | | | |
|---|---|---|---|
| məmulatları üçün)<br>- düymələrin, kimyəvi təmizləməyə verilən məmulatların üzərində xəz yaxalıqların sökülməsi və tikilməsi.<br>- kimyəvi təmizləmədən və rəngləmədən sonra paltarın cari təmiri. | +<br><br>+ | +<br><br>+ | -<br><br>- |
| - xalça məmulatlarının bərpa olunması (xalça məmulatlarının kimyəvi təmizlənməsini həyata keçirən təşkilatlar üçün) | + | - | - |
| - xalçaların və xalça məmulatlarının səthlərinin çirk kənarlaşdırmaq üçün işlənməsi*<br>- üzü rənglənmiş təmiz dəri məmulatlarının təzələnməsi<br>- digər xidmətlər* | +<br>+<br>+ | -<br>+<br>+ | -<br>+<br>- |
| 6. Xidmətlərin icra olunma müddəti:<br>- preyskurant və ya istehlakçı ilə razılaşma üzrə müddət<br>- təcili kimyəvi təmizləmə | +<br>+ | +<br>+ | +<br>- |
| 7. İstehlakçının telefon vasitəsilə tələb olunan informasiyanı əldə etmək imkanı | + | + | - |
| 8. Telefon vasitəsilə təşkilatın əməkdaşlarını sifarişin rəsmiləşdirilməsi və (və ya) yerinə yetirilməsi üçün çağırılması imkanı | + | - | - |
| 9. Əhalinin təşkilat və onun xidmətləri haqqında informasiya ilə təmin olunması (reklam) | + | - | - |
| 10. Müxtəlif müştəri kateqoriyaları üçün endirim sisteminin mövcudluğu* | + | + | - |
| 11. Xidmətlərin icraçılarının tərkibi və ixtisaslaşması<br>11.1. İxtisas üzrə üç ildən artıq iş təcrübəsinə malik olan mütəxəssislər, - mütəxəssislərin ümumi sayının 50% - dən artıq olmayaraq.<br>11.2. İxtisas üzrə bir ildən artıq iş təcrübəsinə malik olan mütəxəssislər, - mütəxəssislərin ümumi sayının 50% - dən az olmayaraq.<br>11.3. Sənədləri qəbul edən şəxsdə ixtisasını təsdiq edən sənədlərin mövcud olması.<br>11.4. İxtisaslaşmış (təcrübəli) ləkə çıxaranın mövcud olması. | +<br>-<br>+ | -<br>+<br>+ | -<br>-<br>+ |

| | | | |
|---|---|---|---|
| 11.5. Mütəxəssislərdə peşəkar təhsili, ixtisasın artırılmasını və / və ya attestasiyanı təsdiq edən sənədlərin mövcud olması, az olmayaraq | +<br>Mütəxəssisləri n 80 % | -<br>Mütəxəssislərin 60 % | -<br>- |
| 12. Müasir avadanlığın tətbiq olunması | + | + | - |
| 13. Avadanlığın texniki xidməti üzrə mütəmadi tədbirlərin həyata keçirilməsi | + | + | + |
| 14. Təbii xəzin, dərinin, qoyun dərisinin və velürün kimyəvi təmizləməsi zaman üzvi həlledicinin soyudulması üçün avadanlığın tətbiq olunması | + | - | - |
| 15. Kimyəvi təmizləmənin nəticəsinin keyfiyyətinə qarşı tələblər:<br>15.1. Yuma xüsusiyyəti, %, az olmayaraq<br>15.2. Kimyəvi təmizləmədən sonra çirklərin resorbsiya norması (yalnız toxuculuq məmulatları üçün), çox olmayaraq:<br>Məmulatın rəngi: boz<br>Məmulatın rəngi: tünd<br>15.3. Xlor – üzvi həlledicilərin məmulatda qalıq tərkibi, mq/l, çox olmayaraq | 70<br>5<br>10<br>3 | 60<br>8<br>12<br>7 | 52<br>10<br>15<br>10 |
| 16. qəbul məntəqəsinin xarici görünüşü və otaqların tərtibatı:<br>16.1. İşıqlı tərtibat elementləri ilə asma reklamın mövcudluğu<br>16.2. Dekorativ elementlərin istifadəsi və / və ya bədii tərtibat. | +<br>+ | -<br>- | -<br>- |
| 16.3. Otaqların rahatlığı<br>16.4. Otaqların komfortu | +<br>+ | +<br>- | -<br>- |
| 17. Qəbul məntəqəsinin ətraf ərazisində avtomobillərin saxlanılması imkanı. | + | - | - |
| 18. İcraçının Patent idarəsində qeydiyyata alınmış xidmət nişanının (əmtəə nişanı) mövcud olması | + | - | - |
| 19. Sifarişlərin təhvil verilməsi üçün xüsusi firma qablaşdırılmasının mövcud olması | + | - | - |
| 20. İstehlakçılarla qarşılıqlı əlaqədə olan işçilərin xüsusi firma geyiminin mövcud olması | + | - | - |
| 21. Göstərilən xidmətlərin keyfiyyətini təsdiq edən sənədlərin mövcud olması: | | | |

| | | | |
|---|---|---|---|
| - uyğunluq sertifikatı<br>- istehlakçıların müsbət rəyləri<br>- təşkilatın və ya onun əməkdaşlarının müxtəlif müsabiqələrdə iştirak etməsi barədə diplomlar və sair* | <br>+<br>+<br>+ | <br>+*<br>+<br>- | <br>-<br>-<br>- |
| Qeydlər:<br>"+" işarəsi nəzərdə tutur ki, tələbin yerinə yetirilməsi nəzərdə tutulur, "-" işarəsi isə - tələbin yerinə yetirilməsi nəzərdə tutulmur.<br>*işarəsi ilə göstəricilər bütün digər tələblərin təsdiq olunması zaman diqqətdən keçirilə bilər. | | | |

Bundan əlavə, yuma xidmətləri göstərən camaşırxanalarda ali kateqoriyalı və adi standart canaşırxanalara bölünür. Onlara qarşı tələblər də təsdiq olunub. Həmin tələblərin siyahısı aağıdakı cədvəldə təqdim olunur.

**Cədvəl 3. Yuma xidmətlərinin icraçılarına qarşı tələblər**

Cədvəl 3

| **Yuma xidmətlərinin icraçılarına qarşı tələblər** | **Tələblərin yerinə yetirilməsi** | |
|---|---|---|
| | **Ali kateqoriyalı camaşırxana** | **Camaşırxana** |
| 1. Xidmətlərin hazırkı standartın tələblərinə uyğunluğu | + | + |
| 2. Orqanların müsbət rəyinin mövcudluğu:<br>- Sanitar – epidemioloji nəzarət orqanının<br>- Dövlət yanğın xidmətinin | <br>+<br>+ | <br>+<br>+ |
| 3. Yuma üzrə göstərilən xidmətlərin nomenklaturası– 10 xidmətdən artıq | + | - |
| 4. Xidmət icraçılarının tərkibi və ixtisaslaşması: üç ildən artıq ixtisas üzrə iş təcrübəsinə malik olan 50% - dən az olmayan işçi sayı | + | - |
| 4.1. Mütəxəssislərin peşəkar yararlılığının attestasiya dövrü:<br>- 2 ildə bir dəfədən az olmayaraq;<br>- ildə bir dəfədən az olmayaraq.<br>4.2. Peşə təhsili haqqında və (və ya) ixtisasın artırılması haqqında təsdiqləyici sənədlərin icraçıların ən azı 80%-də mövcud olması. | <br><br>+<br><br>+ | <br><br>+<br><br>- |
| 5. Camaşırxananın xarici görünüşü və onun otaqlarının tərtibatı<br>5.1. İşıqlı tərtibat elementləri ilə asma reklamın mövcud olması<br>5.2. Dekorativ elementlərin istifadəsi və / və ya bədii tərtibat<br>5.3. Sifarişlərin qəbulu və özünəxidmət yuma otaqlarının komfortluğu | +<br><br>+<br><br>+ | -<br><br>-<br><br>- |
| 6. Camaşırxananın və ya onun qəbul məntəqələrinin əsas istehlakçı | + | - |

| | | |
|---|---|---|
| qruplarına görə rahat ərazidə yerləşməsi | | |
| 7. Səyyar xidmət* | + | - |
| 8. Camaşırxananın ətraf ərazisində avtomobilləri saxlamaq imkanı | + | - |
| 9. Sifarişlərin rəsmiləşdirilməsində və istehlakçılara təhvil verilməsində operativlik | + | + |
| 10. İstehlakçı tərəfindən telefon vasitəsilə zəruri informasiyanı almaq imkanı | + | + |
| 11. Əhaliyə camaşırxana və onun göstərdiyi xidmətlər haqqında informasiyanın təqdim olunması (reklam) | + | - |
| 12. Camaşırxana əməkdaşlarının sifarişin rəsmiləşdirilməsi və / və ya həyata keçirilməsi üçüm telefon vasitəsilə çağırılması imkanı | + | - |
| 13. Sosial müdafiə olunmamış əhali üçün endirim sisteminin mövcud olması* | + | + |
| 14. İstehlakçıya özünə xidmət ilə yumanın təklif olunması* | + | - |
| 15. İcraçının Patent agentliyində qeydiyyata alınmış xidməti nişanının (əmtəə nişanının) mövcudluğu. | + | - |
| 16. Sifarişlərin təhvil verilməsi üçün xüsusi firma qablaşdırılmasının mövcud olması | + | - |
| 17. İstehlakçılarla qarşılıqlı əlaqədə olan işçilərin xüsusi firma geyiminin mövcud olması | + | - |
| 18. Xidmətlərin icra olunma müddəti:<br>- preyskurant və ya istehlakçı ilə razılaşma üzrə müddət<br>- təcili yuma<br>- ekspress yuma* | <br>+<br>+<br>+ | <br>+<br>+<br>- |
| 19. Müasir ləkə çıxaran, yuyucu, təmizləyici və dezinfeksiya edici və digər kimyəvi maddələrin istifadə olunması | + | - |
| 20. Müasir avadanlığın istifadə olunması:<br>-paltar yuyan maşınların<br>- sentrifuqaların<br>- ütüləmə avadanlığının<br>- suyun yumşaldılması üçün qurğunun<br>- yerli təmizləyici qurğuların* | <br>+<br>+<br>+<br>+<br>+ | <br>+<br>+<br>+<br>-<br>- |
| 21. parçaların yuyulma effektivliyi 50% - dən az olmayaraq | + | - |
| 22. Göstərilən xidmətlərin keyfiyyətini təsdiqləyən sənədlərin keyfiyyəti:<br>- uyğunluq sertifikatı<br>- istehlakçıların müsbət rəyləri, mətbuatda müsbət rəylər; təşkilatın və ya onun əməkdaşlarının və mütəxəssislərinin müsabiqələrdə iştirak etməsi haqqında diplom. | <br>+<br><br>+ | <br>-<br><br>- |

Qeydlər:

3. "+" işarəsi nəzərdə tutur ki, tələbin yerinə yetirilməsi nəzərdə tutulur, "-" işarəsi isə - tələbin yerinə yetirilməsi nəzərdə tutulmur.

4. *işarəsi ilə göstəricilər bütün digər tələblərin təsdiq olunması zaman diqqətdən keçirilə bilər.

Bu tələblərə icra səviyyəsinə görə kimyəvi təmizləmə təşkilatının kateqoriyası müəyyən olunur, həmçinin, bu tələblərdən konkret kateqoriyalar sisteminin işlənib, hazırlanması zaman əsas qismində istifadə oluna bilər.

Bundan başqa, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Texniki tənzimləmə və standartlaşdırma şöbəsi tərəfindən işlənib hazırlanmış standarta görə yuyulmuş tikiş və trikotaj məmulatları qəbzdə göstərilən yerinə yetirilmiş işlərin həcminə uyğunluq üzrə yoxlanılmalıdır. Məmulatların yuyulmasından sonra (yoxlanılmadan qəbul olunan məmulatlar istisna olmaqla) aşağıdakılara yol verilir:

- *Məmulatın yumaya qəbulu zaman aşkar olunmuş nöqsanlar*
- *istehsal texnologiyasının pozulması və istismar zamanı məmulata qeyri düzgün qulluğun nəticəsində yaranmış və aşkar olunmuş gizli nöqsanlar;*
- *keyfiyyətsiz boyaq maddələri ilə rənglənmiş parçaların rənginin solması;*
- *məmulatların tamlığının pozulması və trikotaj məmulatlarının yumadan sonra üzə çıxmış istismar nəticəsində tikişlərinin sökülməsi;*
- *köhnəlmiş, təmizlənməyən ləkələr;*
- *məmulatların ev şəraitində yuyulması zaman yaranmış şişmə və əyrilikləri;*
- *dərman ləkələri;*
- *uzun müddət tərin, kosmetik vasitələrin təsirindən, atmosfer təsirlərdən və sair yaranmış sarılıq və rəngin dəyişməsi.*

Yuyulmuş, lakin hazırkı standartın tələblərinə cavab verməyən məmulatlar təkrar yuyulma və (və ya) təmizlənmə üçün qaytarılmalıdırlar.

Bu tələblərinin yoxlanılması üçün sınaq laboratoriyaları ildə bir dəfədən az olmayaraq sınaqlar həyata keçirir.

Yuyulmuş tikiş və trikotaj məmulatlarının tələblərə uyğunluğu xidmətlərin icraçısının təşkilatında vizual və orqanoleptik yoxlanılır.

Məmulatların təmizliy çirk və ləkələrin olub, olmaması baxımından vizual qiymətləndirirlər. Yataq məmulatlarının qiymətləndirilməsi zaman bu cür məmulatların kənarları və orta hissələri müqayisə olunur. Üst köynəklərinin təmizliyi yaxalıqların və

manjetlərin təmizliyinə görə qiymətləndirirlər.

Məmulatların yuyulma effektivliyini parçanın süni çirklədilmiş nümunələrinin yuyulması metodu ilə qiymətləndirirlər. Yuyulma effektivliyini PS, % aşağıdakı düsturla hesablayırlar:

$$PS = \frac{Б_{пс} - Б_{з}}{Б_{исх} - Б_{з}} \times 100$$

Burada – süni çirkləndirilmiş nümunənin yuyulmadan sonra ağlığı, %.

$Б_{з}$ - süni çirkləndirilmiş nümunənin yuyulmadan əvvəl ağlığı, %.

$Б_{исх}$ – ilkin ağ parçanın ağlığı, %

Məmulatların qələvilərdən yaxalanaraq, tam təmizlənməsini . son yaxalamadan sonra, yaxalama effektivliyi isə CT CЭB 4920 üzrə müəyyən edilir. Sıxılmaya yataq dəstlərinin və ya nümunələrin qalıq nəmliyinə görə nəzarət olunur və CT CЭB 4920 üzrə. Sıxılma effektivliyini və ya nəmlilik səviyyəsinin W, %, aşağıdakı düstur ilə hesablayırlar:

$$W = \frac{m_2 - m_1}{m_1} \times 100,$$

Burada $m_1$ – quru yüklənmiş paltarın çəkisi, kq

$m_2$ - yüklənmiş paltarın sıxılmadan sonra çəkisi, kq.

Rəngli məmulatların yuyulmaya qarşı davamlılığı ГОСТ 9733.4 üzrə yoxlanılır. ГОСТ 9733.4 üzrə sınaqların həyata keçirilməsi zaman hazırlanmış işçi nümunəsini paltaryuyan maşında digər məmulatlarla birgə işləyirlər. Nəticələrin qiymətləndirilməsi ГОСТ 9733.0 üzrə həyata keçirilir.

## 2.3. Kimyəvi təmizləmə prosesinə daır ümumi texniki, təhlükəsizlik və ekoloji tələblər

Məmulatların təmizlənməsi kimyəvi və akva təmizlənməsi olaraq 2 qrupa bölünür.

**Kimyəvi təmizləmə** - üzvi həlledicilər mühitində məmulatların üzərində olan çirk və

ləkələrin aradan qaldırılmasını təmin edən fiziki – kimyəvi proseslər kompleksidir. **Akva – təmizləmə** - məmulatların xüsusi yuyucu vasitələrinin su məhlullarında işlənməsidir.

Məmulatların kimyəvi təmizlənməsi müəyyən olunmuş qaydada təsdiq olunmuş texnoloji sənədlərə uyğun şəkildə həyata keçirilməlidir. .Məmulatların kimyəvi təmizlənməsi aşağıda qeyd olunan əməliyyatları daxil edir:

- *məmulatların qəbulu;*
- *məmulatların çeşidlərə ayrılması və partiyaların komplektləşdirilməsi;*
- *spesifik çirklərin aradan qaldırılması (ləkələrin təmizlənməsi);*
- *məmulatların təmizlənməsi;*
- *məmulatların üzvi həlledicilər su məhlullarının mühitində işlənməsi;*
- *məmulatların üzlənməsi;*
- *məmulatların isti və nəm təsir altında işlənməsi;*
- *keyfiyyətin yoxlanması.*

Kimyəvi təmizləmə üzrə göstərilən əsas və əlavə xidmətlər haqqında informasiya, xidmətlərin sertifikatlaşdırılmasına dair məlumatlar istehlakçının nəzərinə əyani və aydın formada çatdırılır.

Məmulatların üzvi həlledicilər mühitində işlənməsi üçün tetraxloretilen (perxloretilen), üçxloretilen benzin (uayt-spirit), xladon (freon 113), nefras C 180/210 və normativ sənədlərə uyğun olaraq digər karbohidrogen həlledicilər istifadə olunur. Məmulatların xüsusi yuyucu vasitələrin “Akva-təmizləmə” texnologiyası üzrə su məhlullarında işlənməsinə yol verilir. “Xalça məmulatlarının və üzləmə materiallarının yuyucu tozların su məhlullarından istifadə etməklə xüsusi avadanlıq vasitəsilə işlənməsinə icazə verilir” . Yerli spesifik çirklərin (yağ, zülal, tanin və sair ləkələri) aradan qaldırılması üçün normativ sənədlərə uyğun olaraq xüsusi ləkə təmizləyən vasitələrdən istifadə olunur.

Məmulatların xüsusiyyətlərinin bərpa olunması və onlara yeni xüsusiyyətlərin verilməsi məqsədilə hopdurucular (su kənarlaşdıran, çirk kənarlaşdıran, əzilməmək qabiliyyətini təmin edən və sair) istifadə olunur. Bunun üçün normativ sənədlərə uyğun olaraq xüsusi preparatlardan istifadə olunur. Kimyəvi təmizləmə prosesinin intensivləşdirilməsi üçün gücləndiricilər və normativ sənədlərə uyğun olaraq digər xüsusi vasitələr istifadə oluna bilər.

Məmulatların isti və nəm vasitəsilə işlənməsi aşağıda qeyd olunan əməliyyatları daxil edir: buxara vermə, qurutma, presləmə, ütüləmə.

İstehlakçının istəyi ilə əlavə ödəniş əsasında kimyəvi təmizləmədən sonra qoyun dərisindən, zamşadan, velürdən və dəridən hazırlanmış məmulatların rəng tonunun və

müxtəlif örtüklərinin bərpa olunması üçün kimyəvi təmizləmənin optimal texnologiyasına uyğun olaraq boyaq maddələrinin və təmizləmə preparatlarının məhlulları vurulur.

Kimyəvi təmizləmə xidmətlərinin göstərilməsi üzrə müqavilənin (qəbzin) rəsmiləşdirilməsindən əvvəl xidmətlərin icraçısı kimyəvi təmizləmə obyektində tələblərə uyğun olaraq furnituranı[2] diqqətlə nəzərdən keçirməlidir . Zəruri olan halda və istehlakçı ilə razılıq əsasında çıxarıla bilən furnitura çıxarılır və kimyəvi təmizləmədən sonra əlavə ödəniş əsasında əvvəlki yerlərinə bərkidilir. Məmulatın üzərində çıxarılmayan furnitura olan halda xidmətlərin icraçısı məmulatı müqavilə əsasında qəbul etməli və istehlakçını məmulatın kimyəvi təmizləmə prosesində zədələnməsi ehtimalı barədə xəbərdar etməlidir və bu barədə qəbzdə müvafiq qeyd aparılmalıdır.

Kimyəvi təmizləmədən sonra məmulatlar təmiz olmalı, üzərində ləkələr, şişmələr, parıltılı yerlər, həlledicinin və digər ləkə çıxaran preparatların qoxusu, kənar liflər, tüklər, toz olmamalıdır. Məmulatlar ilkin formasını, tamlığını, rəngini, naxışını və relyefini qorumalıdır.

Məmulatlar quru olmalı, yaxşı ütülənməlidir, qırışlara, əyriliklərə, əyilmiş tikişlərə və tikişlərin konstruksiya pozuntularına malik olmamalıdır. Şalvarlarda ütü qatları ön və arxa yarıların ortasında olmalı, şalvarın bütün uzunluğu boyunca preslənməlidir. Süni xəzdən hazırlanmış məmulatlarda xov bu xəz üçün səciyyəvi olan qrifi, parıltını, elastikliyi və istiqaməti qorumalıdır.. Təbii xəzdən hazırlanmış məmulatlar və detallar parıltını və ilkin formanı qorumalıdır.

Qoyun dərisindən, zamşadan, velürdən və dəridən hazırlanmış məmulatların səthləri kimyəvi təmizləmədən və boyaq maddələrinin məhlulları (istehlakçının istəyinə uyğun olaraq) ilə işləndikdən sonra qabarıq olmamalı və rəngi çıxmamalıdır. . Trikotaj məmulatlar ilki həcmi və formanı qorumalı, süzülmüş ilgəklərə və dartılmış yerlərə malik olmamalıdır.

Xalça və xalça məmulatları tozsuz, ləkəsiz olmalı, rəngini dəyişməməli, tükləri əzilmiş olmamalı, üzərində kənar xov olmamalı, əsasın və xovun tamlığını qorumalıdır.

Yumşaq oyuncaqlar quru olmalı, kənar qoxulara, ləkələrə, tikişlərin deformasiyasına malik olmamalı, detalları qopmuş olmamalı, oyuncaqların xovu daranmış olmalıdır.

Baş örtükləri ilkin fasona və ölçüyə uyğun olmalı, lentləri və ara qatları ütülənmiş, xovu isə daranmış olmalıdır.

Tüklü – pərgülü (yastıq, pərgü döşək və sair) məmulatlar (o cümlədən, tük və pərgü ilə doldurulmuş qatı olan paltar) quru, həcmli və kənar qoxusuz olmalıdır.

Kimyəvi təmizləməyə məruz qalmış məmulatların üzərində boz ərp olmamalıdır.

---

[2] Furnitura ingiliscə furniture sözündədndir, mənası çatdırmaq, təchiz etməkdir. Furnitura paltarda mühüm rol oynamaqla funksional və dekorativ olur. Funksional furnitura paltarda bənd etmə işini həyata keçirir. Bura toqqa, düymə, knopka lent, şnur, rezinka və sair daxildir. Dekoratibv furnitur isə bəzək funksiyası daşıyır.

Kimyəvi təmizləmədən sonra məmulatların resorbsiyası aşağıda göstərilmiş 4 saylı cədvəldə verilmiş göstəricilərə uyğun olmalıdır.

Cədvəl 4

| Məmulatın rəngi | Resorbsiya norması, %, çox olmayaraq | Boz etalonların şkalasının balları |
|---|---|---|
| Açıq | 5,0 | 5 |
| Boz | 10,0 | 4 |
| Tünd | 15,0 | 3 |

Appretura[3] ilə işlənib hazır şəklə salınmış məmulatlar əzilməmək xüsusiyyətinə, su və çirk kənarlaşdırma xüsusiyyətlərinə və antistatik xüsusiyyətlərə malik olmalıdır. Su kənarlaşdırma xüsusiyyətinin göstəricisi (davamlılıq norması) su st. 200 mm – dən az olmamalıdır.

Antistatik[4] işləmə zamanə parçanın xalis səthi elektrik müqavimətinin göstəricisi $2x10^9$ Om-dan artıq olmamalıdır.

Kimyəvi təmizləmə şəraiti xətti ölçülərin qorunmasını təmin etməlidir.

Xətti ölçülərin dəyişikliklərinə yol verilir, % il, artıq olmamaqla:

- ✓ tikiş və trikotaj məmulatları üçün – 2;
- ✓ xalça məmulatları və süni və təbii xəzdən hazırlanmış məmulatlar üçün – 3.

Baş örtüklərinin və təbii xəzdən hazırlanmış məmulatların xətti ölçülərinin yol verilən dəyişiklik normaları bu məmulatların istehsal olunması üzrə normativ sənədlərdə müəyyən olunur.

Tikiş məmulatlarının su məhlullarında işlənmədən sonra xətti ölçülərinin dəyişiklikləri müvafiq növ parçalar üçün normativ sənədlərdə müəyyən olunmuş normalardan artıq olmamalıdır.

Kimyəvi təmizləməyə məruz qalmış xüsusi geyimin peşəkar təyinatı üzrə istifadə imkanı təmin olunmalıdır.

Kimyəvi təmizləmədən sonra aşağıda göstərilənlərə yol verilir:

- ✓ *məmulatın kimyəvi təmizləməyə qəbul olunması zaman aşkar edilmiş nöqsanları;*
- ✓ *istehsal texnologiyasının toxuculuq materiallarından, qoyun dərisindən, dəridən, xəzdən, zamşadan və sair hazırlanmış məmulatların tikilməsi zaman detalların yapışqanla*

[3] Parçanın texniki işlənməsi, xüsusi tərkib – appreta ilə təchiz edilməsi. Bu zaman parça elastik, möhkəm, parlaq və sukeçirməz olur.
[4] Polimer materialları (plastmas, sintetik parça və sair) tərkibinə daxil olan və ya statitik elektrikkeçirməni azaltmaq üçün məhsulun üzərinə bərkidilən maddə.

*bərkidilməsi metodunun istifadəsi pozulması və istismar zamanı məmulata göstərilən qeyri düzgün qulluq nəticəsində yaranmış və kimyəvi təmizləmə zamanı aşkar olunmuş gizli nöqsanlar;*

- ✓ *rəngləmədən, kifdən, silikat yapışqandan, insektisid preparatlardan, mürəkkəb diyircəkli qələm üçün pastalar və yağlardan bütün növ parçaların üzərində, təbii zamşa və qoyun dərisindən hazırlanmış parçaların üzərində əmələ gəlmiş köhnə, təmizlənməyən ləkələr. Kimyəvi təmizləmədən sonra boyaq maddələrinin məhlulları ilə işlənmiş qoyun dərisindən, zamşadan, velürdən və dəridən hazırlanmış məmulatlarının çox köhnəlmə yerlərində rəng çalarının dəyişməsi və ya rənglərin müxtəlifliyi;*
- ✓ *süni məxmər və velürdən hazırlanmış məmulatların səthindən xovun qismən tökülməsi;*
- ✓ *məmulatların üzərində yol çirkinin təsirindən qalmış yeyilmələr.*
- ✓ *rənglənmiş qoyun dərisindən, təbii və süni zamşadan, poliefir lifdən hazırlanmış məmulatların üzərində ən çox köhnəlmə yerlərində (qol köbələri və qatları, yan tikişlər) yaranmış ağ xətlər və rəngin getməsi.*
- ✓ *tərin, kimyəvi maddələrin, atmosfer şəraitin uzun müddət təsiri zamanı yaranmış sarılıq və rəng dəyişikliyi; açıq rəngli xəz məmulatlarının üzərində isə bundan əlavə, xov örtüyünün təbii köhnəlməsi nəticəsində yaranmış və kimyəvi təmizləmədən sonra üzə çıxmış saralmalar və rəng dəyişikliyi.*
- ✓ *ev şəraitində qeyri düzgün ütüləmə nəticəsində və ya istehsal zamanı əmələ gəlmiş və kimyəvi təmizləmədən sonra üzə çıxmış saralmalar, ağarmış sahələr.*
- ✓ *uzun müddət istifadə, güvə sürfələri ilə və ya siqaret külü ilə zədələnmə nəticəsində yaranmış və kimyəvi təmizləmədən sonra üzə çıxmış məmulatların tamlığının pozulması yerlərində trikotaj məmulatlarının tikişlərinin süzülməsi.*
- ✓ *dublyaj olunmuş toxunma materiallarından hazırlanmış məmulatlarda uzun müddət istismar nəticəsində yaranmış əyriliklər və qatlar.*
- ✓ *-məmulatların ev şəraitində su məhlulları ilə təmizlənməsi zaman yaranmış əyilmələr.*

Məmulatın istehlakçıya təhvil verilməsi zaman məmulatlar qablaşdırılmış olmalıdır.

Kimyəvi təmizləmə maşınlarının quraşdırılması, istismarı və təmir olunması zaman əməyin təhlükəsizliyini təmin edən ümumi təhlükəsizlik tələbləri, işçi zonasının havasına qarşı sanitar – gigiyenik tələblər mövcuddur.

Kimyəvi təmizləməyə məruz qalmış məmulatlarda xlor – üzvü həlledicilərin qalıq tərkibi işçi zonasının havasında həlledici buxarlarının yol verilən hədd konsentrasiyasından artıq olmamalıdır ki, bu konsentrasiyanın həcmi 10 mq/$m^3$ təşkil edir.

Erkən körpə yaşlı uşaqlar üçün paltarların və yumşaq oyuncaqların üzvi həlledicilər

mühitində təmizlənməsinə və xüsusi kimyəvi preparatlarla işlənib, təmizlənməsinə yol verilmir.

Kimyəvi preparatlar: kimyəvi təmizləmə zamanı istifadə olunan həllediciləri, gücləndiricilər, ləkə çıxaranlar, appretura elementləri, güvə əleyhinə, antistatik və digər vasitələr normativ sənədlərin tələblərinə cavab verməli, sanitar – epidemioloji rəy və istifadə üzrə təlimata, eləcə də, məcburi qaydada sertifikatlaşdırılmalı olan preparatlar üçün uyğunluq sertifikatlarına malik olmalıdırlar.

Xidmətin ekoloji təhlükəsizliyi müəyyən olunmuş ətraf mühitin qorunmasına qarşı tələblərin yerinə yetirilməsi ilə təmin olunmalıdır: əraziyə, yerlərin texniki vəziyyətinə və saxlanılmasına, ventilyasiyasına, su təchizatına, kanalizasiyasına və digər iş amillərinə qarşı tələblər.

Məmulatların kimyəvi təmizlənməsindən sonra tullantılar utilizə edilməlidir.Kimyəvi təmizləmənin çirkab sularında çirkləndirici maddələrin tərkibi şəhər kanalizasiyasına qəbul olunan istehsalat çirkab sularına qarşı müəyyən olunmuş ümumi tələblərə uyğun olmalıdır.

## 2.4. Kimyəvi təmizləmə müəssisələrinin xidmətlərinin həcminin müəyyənləşdirilməsi və vergi öhdəlikləri

Məişət xidmətlərinin həcminə vətəndaşların fərdi sifarişləri üzrə yerinə yetirilən bütün işlər (təmir, yeni məmulatın hazırlanması; şəxsi və mədəni-məişət təyinatlı əşyaların, nəqliyyat vasitələrinin müvəqqəti istifadəyə-kirayəyə verilməsi; musiqi əsərlərinin və videoproqramların kassetlərinin əhalinin sifarişi ilə çoxaldılması; nəqliyyat və mərasim xidmətləri və s.) daxil edilir.

Uçot və hesabatda nəzərdə tutulmuş xidmətlərin hər bir növü üzrə əsas işin dəyərindən başqa, əlavə xidmətlərə görə ödəniş də daxil edilir.

Məişət xidmətlərinin həcmində həmçinin aşağıdakılar nəzərə alınmalıdır:

- *bilavasitə qəbul məntəqələri tərəfindən nağd hesablaşma ilə vətəndaşlara satılan (sifarişin kimin tərəfindən olunmasından asılı olmayaraq, fərdi sifarişlə hazirlanan məmulatlar) məmulatların dəyəri;*
- *məişət xidmətləri göstərilərkən istifadə edilən materialların, qovşaqların, detalların və ehtiyat hissələrinin dəyəri;*
- *ödəniş formasından asılı olmayaraq vətəndaşlara məxsus olan kooperativ qarajların və nəqliyyat vasitələri üçün dayanacaqların tikintisi və təmiri, bağ sahələrinin abadlaşdırılması*

*və kooperativ evlərdə ümumi istifadə yerlərinin kooperativ üzvlərinin vəsaiti hesabına (yoldaşlıq) təmiri üzrə xidmətlərin dəyəri;*

❖ *müalicə-profilaktika, sağlamlıq müəssisələrinin, sosial-məişət təşkilatlarının sifarişi ilə yerinə yetirilən xidmətlərin, habelə müəssisələrin sifarişi ilə yerinə yetirilən mərasim xidmətlərinin; tədris müəssisələrinin yataqxanalarının, mehmanxanaların, turizm və dəmir yolu müəssisələrinin, hava limanlarının, gəmiçilik müəssisələrinin və hərbi hissələrin sifarişi ilə yerinə yetirilən camaşırxana (sifarişçinin balansında olan camaşırxanalardan başqa), kimyəvi təmizləmə və boyama xidmətlərinin; hərbi hissələrin kontingentinə göstərilən hamam və duş xidmətlərinin dəyəri.*

Aşağıdakılar məişət xidmətlərinin dəyərinə daxil edilmir:

- *sifarişçinin verdiyi material, məmulat, ehtiyat hissələrinin və s. xammalların dəyəri;*
- *xidmət göstərən müəssisə tərəfindən pərakəndə ticarətdən alınmış material, məmulat, hissələr və ehtiyat hissələrinin dəyəri;*
- *kommunal xidmətlərinin (qaz təchizatı) tərkibində uçota alınan əhalinin sifarişi ilə qaz balonlarının doldurulması və çatdırılması xidmətləri zamanı maye qazın dəyəri;*
- *radioelektron aparatlarının, məişət maşınları və cihazlarının, nəqliyyat vasitələrinin bilavasitə istehsalçı müəssisə və ya onun bölmələri tərəfindən təmənnasız yerinə yetirilən zəmanət təmirinin dəyəri;*
- *idarə, müəssisə və təşkilatlara satılmış olunmuş məmulatlar;*
- *radioelektron aparatlarının, məişət maşın və cihazların, nəqliyyat vasitələrinin satışqabağı təmirinin dəyəri;*
- *digər bir müəssisə tərəfindən uçota alınmış (kooperasiya, vasitəçilik və s.) xidmətlərin dəyəri;*
- *pərakəndə satış dövriyyəsinin tərkibində uçota alınan, məişət xidməti, mənzil-*kommunal *təsərrüfatlarının ixtisaslaşmış bağçılıq və gülçülük mağazaları (müəssisələri) vasitəsilə satılan (mərasim üçün ixtisaslaşmış mağazalar vasitəsilə satılanlardan başqa) güllərin, gül şitillərinin və toxumlarının dəyəri.*

Paltarların kimyəvi təmizlənməsi və boyanması, yuyulması zamanı nağd pul hesablaşmalarını nəzarət kassa aparatları vasitəsilə həyata keçilməsi tələb olunmur.

Paltarların kimyəvi təmizlənməsi və boyanması, yuyulması ilə məşğul olan müəsssələrin vergi öhdəlikləri Vergilər Məcəlləsi qüvvəyə minənədək, "Pərakəndə ticarət, ictimai iaşə və məişət xidməti sahəsində fəaliyyətin gəlirlərindən (hasilatdan) verginin hesablanması və ödənilməsi qaydaları haqqında" təlimatla tənzimlənirdi. Hazırda bu sahədə vergi öhdəlikləri Vergi Məcəlləsi ilə müəyyən edilib. Belə ki, ardıcıl 12 aylıq dövrün istənilən ayında

(aylarında) vergi tutulan əməliyyatlarınızın həcmi 200.000 manatdan azdırsa onda Paltarların kimyəvi təmizlənməsi və boyanması, yuyulması ilə məşğul olan müəsssələr və fərdi sahibkarlar sadələşdirilmiş vergi ödəyiciləri sayılır. Məcəlləyə görə, hesabat rübü ərzində göstərilmiş işlərə, xidmətlərə görə əldə edilmiş ümumi hasilatın, habelə satışdankənar gəlirərin (ödəmə mənbəyində vergi tutulmuş gəlir istisna olmaqla) Bakı şəhərində 4 faizi**,** digər regionlarda isə 2 faizi sadələşdirilmiş vergi kimi ödənilir.

## 3. Kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətləri sektorunun inkişafı ilə bağlı təkliflər

Aparılmış emprik tədqiqatlar, masa araşdırmaları, mövcud hüquqi-normativ bazanın təhlili göstərdi ki, kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətləri sektorunda biznesin inkişafı imkanları ölkədə sosial-iqtisadi vəziyyətdən, işgüzar aktivliyin səviyyəsindən, əhalinin alıcılıq qabliyyətinin durumundan asılıdır. Son zamanlar Azərbaycanın dövlətinin və büdcəsinin maliyyə imkanlarının məhdudlaşması işgüzar fəallığa da mənfi təsir göstərib. Bununla yanaşı artan valyuta təzyiqinin nəticəsi olaraq, manatın kəskin devalvasiyası kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətləri sektorunda biznes fəaliyyəti ilə məşğul olanların xərclərinin artımına gətirib çıxarıb. Xüsusilə də idxal avadanlıqlarının və materiallarının qiyməti 3 il bundan əvvəlki dövrlə müqayisədə 2 dəfəyədək artıb. Ötən ilin dekabr ayından elektrik enerjisi, 13 may 2016-cı ildən isə su təchizatı və tiullnatı sularının axıdılması traiflərinin bahalaşdırılması kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətləri sektorunda bizneslə məşğul olan sahibkarların xərclərini xeyli artırmışdır.

Bununla yanaşı, xüsusilə də camaşırxana xidmətləri sektorunda bizneslə məşğul olan sahibkarlar bu sektorda inhisarçılıq fəaliyyətindən əziyyət çəkdiklərini bildirmişdirlər. Onlar qeyd etmişdilər ki, xüsusilə də mehmanxanalar, restoranlar, eləcə də səhiyyə və sanator-kurort müəsssiələrindən, hərbi hissələrdən sifraişlərin əldə edilməsində xüsusi himayəçilik və bazarda qeyri-sağlam rəqabət mövcuddur. Belə tip müəssisələrdən iri həcmli sifarişlər adətən tapşırıqlar əsasında bır neçə camaşırxana arasında bölüşdürülür.

Nəhayət, kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətləri sektorunda bizneslə məşğul olan sahibkarlar onların fəaliyyətinə müdaxilələrdən və eyni zamanda tələb olunan qeyri-rəsmi ödənişlərdən narazalıqlarını bildirmişdilər. Onlar qeyd etmişdilər ki, sanitar-epidomoloji stansiya, mənzil-istismar idarələri, fövqəlada hallar nazirliyi, kommunal xidmət

göstərən bəzi orqanlar onlardan hələ də qeyri-rəsmi olaraq ödənişlər tələb edirlər.

Odur ki, aparılmış emprik tədqiqatlar, masa araşdırmaları, normativ bazanın ekspertizası əsasında aşağıdakı tövsiyyələr irəli sürülür.

- *Kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətləri sektorununun inkişafına dair konsepsiyanın hazırlanması*
- *Sifrarişlərin əldə edilməsi sahəsində sağlam rəqabət mühitinin təminatı üzrə tədbirlərin həyata keçirilməsi*
- *Marketinq siyasətinin gücləndirilməsi üçün kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətləri sektorunda çalışan sahibkarların xüsusi təlimlərə cəlb edilməsi*
- *İdxal avadanlıqlarının ölkəyə gətirilməsi üçün kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətləri göstərən müsəsislərə igömrük güzəştlərinin verilməsi;*
- *Kimyəvi təmizləmə, boyama və camaşırxana xidmətləri sektorunda çalışan sahibkarların peşəkar birliklərinin və ya dərnəklərinin yaradılmasının və onların fəaliyyətinin təşfiq olunması.*